**Kürün sahilində doğan günəş fərqli parlayırdı. Mingəçevirin səması işıqla, torpağı tarix yazan addımların səsi ilə canlanırdı. Azərbaycan dövləti uğurlu addımları zamanın sınaqlarında möhkəmlənən rasional strateji təfəkkürün süzgəcindən keçirərək reallaşdırır. Müasir dövrün mürəkkəb iqtisadi arxitekturasında, xüsusilə də enerji kimi geosiyasi baxımdan son dərəcə həssas və strateji sahədə verilən lazımi qərarlar yalnız dərin intellektual-siyasi planlamaya malik dövlətlərin iradəsi ilə mümkündür. İyunun 24-də Mingəçevirdə istifadəyə verilən "8 Noyabr" Elektrik Stansiyası məhz bu uzaqgörənliyin konkret təzahürü, milli iqtisadiyyatın idarə edilməsində intizamlı və ölçülü-biçili yanaşmanın təcəssümüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan layihə göstərir ki, Azərbaycan həm də gələcək onillikləri öz siyasi-iqtisadi xəritəsində əvvəlcədən dizayn etmək qətiyyətinə sahibdir. Bu infrastruktur daha böyük çərçivədə iqtisadi suverenliyin möhkəmləndirilməsi, daxili tələbatın milli resurslarla qarşılanması və regionda enerji təhlükəsizliyinə töhfə verən milli modelin qurulması anlamına gəlir. Bu yanaşma Azərbaycanı enerji ixracatçısı statusu ilə yanaşı, daxili istehsal gücünə malik regional enerji mərkəzi kimi səciyyələndirir.**

# Nur şəhərindən daha aydın gələcəyə

Sözsüz ki, nur şəhəri Mingəçevirin belə strateji layihə üçün seçilməsi də təsadüfi deyil. Şəhər iqtisadi baxımından ölkə sənayesinin, energetikasının təməl sütunlarındandır. 1970-ci illərin ortalarında, dövlətimiz hələ sovet idarəetmə sisteminin sərt strukturları ilə mübarizə aparan zaman Ulu Öndər Heydər Əliyev xalqın və dövlətin sabahını azad gələcəyə doğru yönəldən, uzaq hədəflərə köklənən inkişaf fəlsəfəsinin təməlini qoydu. Bu fəlsəfənin mərkəzində enerji isə iqtisadi güc, siyasi manevr azadlığı və milli müstəqilliyin texnoloji əsasları demək idi. Məhz belə strateji baxışla 1974-cü ildə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının təməli qoyuldu. 1981-ci ildə ilk blok istismara verildikdə sovet senzurası və inzibati nəzarət altında ölkəmiz artıq öz iqtisadi konturlarını formalaşdırmağa başlamışdı. Stansiyanın bloklarla genişlənməsi isə milli özünüdərkə doğru siyasi intibah idi. Lakin zamanın amansız çarxı hər zaman eyni istiqamətdə fırlanmır. 1990-cı illərin əvvəllərində müstəqillik yenicə bərpa olunmuş, dövlət mexanizmi isə böhran vəziyyətində idi. Enerji qıtlığı həyatın bütün sahələrini iflic vəziyyətə salmışdı. Qaranlıq günlərdə Mingəçevir yenə qəlblərə ümid işığı gətirdi. Məhz vaxtilə Ulu Öndərin uzaqgörənliyi ilə qurulan stansiya ən çətin anlarda belə ölkənin enerji ilə təmin etdi.

Bu gün tarix yenilənir. Mingəçevirdə yeni dövr başlayır. Əsası qoyulan "8 Noyabr" Elektrik Stansiyası Zəfər fəlsəfəsinin iqtisadi təcəssümüdür. "8 noyabr" adı ilə istifadəyə verilən stansiya həm də qələbənin enerjisidir - Vətən müharibəsində qazanılan zəfərin iqtisadi təzahürüdür. Qlobal enerji böhranları ilə üz-üzə qalan dünya nəhəngləri sosial təlatümlərlə sarsıldığı bir vaxtda Azərbaycan enerji siyasətini yalnız ixracat parametrləri ilə deyil, daxili sabitlik, çevik planlama və balanslı sosial inkişafla ölçür. Beynəlxalq müstəvidə enerji sahəsində qeyri-müəyyənliklər, qiymət dalğalanmaları və strateji risklər fonunda bir çox ölkələr sosial təzyiqlərlə, struktur böhranlarla üzələşir, Azərbaycan isə öz resurslarından səmərəli şəkildə istifadə etməklə həm daxili sabitliyi qoruyur, həm də davamlı inkişaf xəttini pozmadan gələcəyə doğru inamla irəliləyir.



"Azərbaycan" İstilik Elektrik Stansiyasının 1800 meqavatlıq gücü, yeni istifadəyə verilmiş "8 Noyabr" Elektrik Stansiyasının 1880 meqavat generasiya potensialı və əlavə olaraq Su Elektrik Stansiyasının 400 meqavatdan artıq istehsal gücü fonunda Mingəçevir Cənubi Qafqaz miqyasında nadir enerji klasteri kimi çıxış edir. Enerji baxımından ölkənin yükünü daşıyan bu mərkəz əslində, Azərbaycanın gələcək iqtisadi modelinin də formalaşdırır.

Müasir dünyanın geosiyasi koordinatları dərin transformasiyadan keçir. Qütbləşmiş dünya yerini çoxqütblü, çevik və çoxşaxəli münasibətlər sisteminə verir. Məhz bu mürəkkəb geosiyasi konfiqurasiyada Azərbaycan özünü sabit, ardıcıl və balanslı siyasət yürüdən dövlət kimi təsdiqləyib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu bu gün qlobal sistemdə həm Şərq, həm də Qərblə paralel əməkdaşlıq modeli kimi qəbul edilir. İyunun 24-də Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının açılışında İtaliyanın "Made in Italy" naziri Adolfo Ursonun, həmçinin Çinin "Dongfang Electric International Corporation" Şirkətinin İdarə Heyətinin sədri Çen Qianqın çoxvektorlu siyasətin parlaq nümunələridir. Azərbaycanın İtaliya ilə münasibətləri isə uzun illərdir ki, siyasi dialoq, iqtisadi əməkdaşlıq və mədəniyyətlərarası təmaslar sahəsində dərinləşmişdir. Adolfo Ursonun Azərbaycana dəfələrlə səfər etməsi artıq protokol səviyyəsindən çıxaraq iki dövlət arasında formalaşmış siyasi etimadın canlı ifadəsinə çevrilib. O, Avropanın aparıcı ölkələrindən birini təmsil edən və Azərbaycanın həssas məqamlarında yanında dayanan şəxsiyyət kimi yadda qalıb. Xüsusilə, 2020-ci ilin ağır, amma şərəfli günlərində Gəncə və Ağdama səfəri ilə Adolfo Urso Azərbaycanın tarixi ədaləti bərpa etdiyi coğrafiyalarda Avropanı təmsil edən ilk yüksəkçinli şəxs olmuşdu. Bu faktın dövlət başçısı tərəfindən xüsusi vurğulanması heç də təsadüfi deyil, çünki zaman və məkan baxımından belə ziyarətlər artıq simvolik dəyər daşıyır, siyasi mövqe bildirir, diplomatik davranışdan çox strateji niyyətin təzahürü kimi qiymətləndirilir. Prezident İlham Əliyevin çıxışında işğaldan azad olunmuş ərazilərdə üç beynəlxalq hava limanının artıq fəaliyyət göstərməsi barədə verdiyi məlumat quruculuğun hansı miqyasda aparıldığını göstərən siyasi mesajdır: Azərbaycan ərazilərini, həm də gələcəyini də inşa edir. Bu quruculuq müstəqilliyin yenidən təşkili, dövlətçiliyin modern əsaslarla bərpası prosesidir.



Bu iki fərqli sivilizasiya - İtaliya timsalında Qərb, Çin timsalında Şərq ilə eyni anda və paralel əsaslarla strateji tərəfdaşlıq qura bilmək Azərbaycanın qlobal miqyasda neytral balans yaratdığının sübutudur. İtaliya və Çinlə strateji tərəfdaşlıq haqqında bəyannamələrin imzalandığını deyən dövlət başçısı vurğulayıb ki, onun həmin ölkələrə çoxsaylı səfərlər nəticəsində bir çox istiqamətlər üzrə çox gözəl nəticələr əldə edilmişdir. Bu siyasətin əsasında isə milli maraqların müdafiəsi, qlobal sistemdə rasional mövqe və eyni anda fərqli aktorlarla uzlaşa bilən çevik, prinsipal diplomatiya dayanır. Bu, Azərbaycanın XXI əsrdə həm regional güc, həm də qlobal balansın daşıyıcısı olmasının əsas səbəbidir.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**